***İsa Şuşalı***

***Xocalılar ürəyində qərar tutub adın sənin!***

Durmusan el keşiyində,
Sabir sayıq sən həmişə!
Qoymamısan xəyanətkar,
Həqiqətə yaxın düşə.

İsindirib ürəyini,
Ana torpaq hərarəti,
Hopubdu qan damarına
Qeyrətli xalq hərarəti!

Yaş görəndə el gözündə,
Yaş axıdıb gözün sənin,
Bir təsəlli olub millət,
Ürəyinə sözün sənin!

Qəlblərdə haqq ocağını,
Çatan əli kara gəlib!
İmkansızın qollarından,
Tutan əli kara gəlib!

Xocalılar ürəyində,
Qərar tutub adın sənin!
İsindirir qəlblərini,
Ürək, közün, odun sənin!

***Sabir Məmmədova həsr olunmuş şeir // Unudulmaz abidədir bu kitab. – Bakı : Nurlan, 2009. – S.70.***